Azərbaycan Respublikası Ədliyyə
Nazirliyi Penitensiar Xidmətin
Bakı İstintaq Təcridxanasında
saxlanılan Qasımov Fazil Şakir
oğlu tərəfindən

# Müraciət

Əvvəlki müraciətlərimdə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində (BMCMİ) dəhşətli işgəncələrə məruz qaldığım barədə məlumat vermişdim. Mənə işgəncələr verilməsinin əsas səbəbi iqtisadçı alim Qubad İbadoğlu ilə birlikdə, Azərbaycan gənclərinə xaricdə təhsil imkanları yaratmaq məqsədilə Londonda təsis etdiyimiz təhsil fondu - AYEF olsa da, başqa səbəblər də olub. O səbəblərdən biri də azərbaycanlı xeyriyyəçi iş adamı Mübariz Mənsimovun vəkilləri ilə olan ünsiyyətim və onlara araşdırmalarımla dəstək olmağım olub. Qeyd edim ki, mən İstanbul Universitetində elmi tədqiqatlar aparmaqla birlikdə, 2022-ci ilin iyul ayından Azərbaycana gətirildiyim günə qədər Palmali şirkətində işləmişəm. Palmali şirkətinin işçisi kimi, beynəlxalq arbitraj məhkəmələrində və Türkiyə məhkəmələrində Palmali şirkətinin və onun sahibinin qanuni maraqlarını müdafiə edən vəkillərlə işgüzar ünsiyyət saxlamışam. Məqsədim, Palmali şirkətinə və onun sahibinə ziyan vurmağa çalışanların məkrli məqsədlərinə çatmasına imkan verməmək və artıq vurulmuş ziyanın isə kompensasiya olunmasına nail olmaq idi. Ancaq bu qanuni fəaliyyətimə görə BMCMİ-də polislər tərəfindən işgəncələrə məruz qalmışam. Qeyd edim ki, 2015-ci ildə Rusiyanın Lukoil şirkəti tərəfindən Palmali şirkəti ilə kontraktların vaxtından əvvəl təktərəfli şəkildə ləğv edilməsi nəticəsində Mübariz Mənsimova 2 milyard dollara yaxın ziyan vurulub. Lukoil şirkətinə paralel olaraq, SOCAR-ın sabiq rəhbərliyi tərəfindən Palmali şirkətinə və onun sahibinə qarşı aparılan iqtisadi müharibə nəticəsində də Mübariz Mənsimova külli miqdarda ziyan vurulub. Mən bu barədə Mübariz Mənsimovun həbsindən sonra könüllü olaraq apardığım araşdırmalar nəticəsində məlumat sahibi oldum. Daha sonra azərbaycanlı və türkiyəli jurnalistlərin köməkliyi ilə bu məlumatları ictimailəşdirdik. Mən o dövrdə sadəcə Lukoil və Palmali şirkətləri arasında London arbitraj məhkəməsində gedən proses barədə məlumatlı idim. Palmali şirkətində çalışmağa başlayandan sonra, Mübariz Mənsimov həbsdəykən, London arbitraj məhkəməsində SOCAR-ın iddialarına da baxıldığını öyrəndim. Mübariz Mənsimov həbsdə olduğuna görə Lukoil və Palmali şirkətləri arasında Londondakı məhkəmə prosesində yekun qərar verilməmişdir,

Сканировано с CamScanner

ancaq SOCAR-ın iddialarına baxılmış və ədalətsiz qərar verilmişdir. Həmin qərar qüvvəyə minəndən 1 gün sonra Mübariz Mənsimov azadlığa buraxılmışdır. Bu barədə ətraflı yazmağımın səbəbi Mübariz Mənsimova qarşı Rusiyanın Vergilər Departamenti – Lukoil – SOCAR ittifaqını vurğulamaqdır. 10 iyulda yazdığım müraciətdə Rusiyanın Vergilər Departamenti tərəfindən 2014-cü ildə Palmali şirkətinə haqsız şəkildə böyük məbləğdə vergi cəriməsi kəsildiyini, cərimənin silinməsi üçün Mübariz Mənsimovdan rüşvət tələb edildiyini, Mübariz Mənsimovun həm rüşvət verməkdən, həm də cəriməni ödəməkdən imtina etdiyini qeyd etmişdim. 2014-cü ildə Mübariz Mənsimovdan rüşvət tələb edən şəxs hal-hazırda Rusiyanın baş naziridir. Həmçinin, 2014-cü ildə SOCAR Palmali şirkəti ilə ticari münasibətlərini sonlandırmaq üçün hazırlıqlar görməyə başlamış, Birləşmiş Ərəb Əmirliklərində gəmiçilik şirkətləri (SOCAR Logistics DMCC, Dilmar Shipping və s.) qurmağa başlamışdır. Bu barədə Azhaber saytında yayınladığımız məqalədə ətraflı məlumat var. Bir sözlə, Türkiyədə yaşayan və iş dünyasında böyük uğurlar əldə edən azərbaycanlı xeyriyyəçi iş adamına ziyan vurmaq üçün, 2014-cü ildə Azərbaycanın dövlət şirkəti ilə Rusiyanın özəl şirkəti və Vergilər Departamenti ittifaq qurub. Bu ittifaq Azərbaycan xalqının maraqlarına tamamilə ziddir. Təəssüf ki, Türkiyə rəsmiləri də siyasi səbəblərdən Mübariz Mənsimova qarşı bu haqsızlıqlara müdaxilə etməmişdir. "Biz güclülərin haqlı olduğu dünyada deyil, haqlıların güclü olduğu dünyada yaşamaq istəyirik" deyən Türkiyə rəsmiləri Türkiyə vətəndaşı olan Mübariz Mənsimova qarşı Türkiyə məhkəmələrində sifarişli qərarlar qəbul edilməsinə imkan verməməlidir. Qanunun aliliyi olmayan ölkəyə heç bir rasional iş adamı yatırım etməz. Ayrıca, xalqın iradəsini təmsil edən siyasi postlardan xalqın maraqlarına zidd qərarlar vermək və xalqın ləyaqətli övladlarını ləkələmək, cəzalandırmaq üçün istifadə etmək etik, hüquqi, demokratik prinsiplərə ziddir.

Qeyd edim ki, SOCAR-ın sabiq rəhbərliyi, mənim Mübariz Mənsimovun qanunsuz, sifarişli həbsinə araşdırmalarımla etiraz etdiyim barədə 2020-ci ilin may ayında xəbər tutmuş, keçmiş MTN işçisi, Pal Güvenlik şirkətinin sahibi Vüqar Hüseynova (Vugar Huseyin) məni cəzalandırmaq / zərərsizləşdirmək tapşırığı vermişdir. Vüqar Hüseynov bir müddət Palmali şirkətində işləmiş, 2019-cu ildə işdən ayrılmışdır. Mən onun Palmali şirkətindən ayrıldığını, artıq SOCAR-ın sabiq rəhbərliyinə xidmət etdiyini bilmirdim. Ona görə 2020-ci ilin mayın 2-də araşdırmalarımı onunla bölüşdüm. Vüqar Hüseynov bu barədə söhbət etmək üçün mənimlə görüşmək istədiyini bildirdi. Mayın 4-də biz İstanbulda Maslak Eclipce-də yerləşən Pal Güvenlik şirkətinin ofisində görüşdük. O, söhbət zamanı Mübariz Mənsimovun Palmarina (Bodrum

Сканировано с CamScanner

Yalıkavak Marina) ilə bağlı məhkəməyə müraciət etməklə səhv etdiyinə məni inandırmağa çalışdı. Mənim araşdırmalarımın böyük problemlər yaratdığını, SOCAR rəhbərliyini qəzəbləndirdiyini söylədi və araşdırmalarımı dayandırmasam başıma pis işlər gələcəyini söylədi. Mən ona izah elədim ki, Mübariz Mənsimovdan aldığım təqaüdlə Türkiyədə ali təhsilimi davam etdirmişəm, Mübariz Mənsimovun qanunsuz olaraq həbsdə qalmasına səssiz qala bilmərəm. Vüqar Hüseynov məndən onunla görüşdüyümü kiməsə söyləyib söyləmədiyimi soruşdu. Mən onun niyyətinin pis olduğunu başa düşüb qardaşımın məlumatlı olduğunu söylədim. Əgər qardaşımın məlumatlı olduğunu ona söyləməsəydim, yəqin ki, bugün həyatda olmayacaqdım. Daha sonra Vüqar Hüseynov üzümə dezedezant fışqırtdı. Mən dezedezantın təsiri ilə bayıldım. Nə qədər baygın qaldığımı bilmirəm. Ancaq ayılanda Vüqar Hüseynovun mənə su içirtdiyini gördüm. Mən çox halsız vəziyyətdə idim, başımda küt ağrılar vardı, gözlərim bulanıq görürdü. O, SOCAR-ın sabiq prezidentinin dayısı oğlu Anar Əlizadə ilə telefonla mənim barəmdə danışdı. Sonra O, işçisinə məni evimə aparmağı tapşırdı. İşçisi qolumdan tutub məni binanın girişinə apardı. Ancaq onun məni evimə aparacağına inanmadım və binanın girişində evə özüm tək gedəcəyimi bildirdim. O, məni tək buraxmaq istəmirdi. Mən onunla getməmək üçün çox israr etdim. Sonra divardan tuta-tuta, yıxıla-yıxıla oradan uzaqlaşdım. Dostlarıma zəng edib başıma gələnləri danışdım. Sonra xəstəxanaya gedib qan analizi verdim. Bu hadisədən sonra kəskin baş ağrılarım oldu. İki dəfə beyin MRT çəkdirdim. Yuxu pozğunluğundan, qarabasmalardan şikayət çəkdim. Üzümə fışqırtılan dezedezantın tərkibində də psixotrop maddələr vardı. Ancaq mən baş verənlər barədə Türkiyənin hüquq-mühafizə orqanlarına müraciət etmədim. Türkiyə rəsmilərindən sadəcə YTB başqanı Abdullah Erenə məktub yazıb, daha sonra zəng edib bu barədə məlumat verdim. YTB təqaüdçüsü olduğuma görə, ondan Türkiyədə təhlükəsizliyimin təmin olunması üçün köməklik istədim. Bu hadisədən sonra Türkiyədə qalmağımın səbəbi İstanbul Universitetində elmi tədqiqatlar aparmağım və Türkiyə dövlətinin məni qoruyacağına olan inancım idi. Ancaq təəssüf ki, bu hadisədən 3 il sonra Azərbaycandan edilən siyasi sifarişlə Türkiyədən qanunsuz olaraq deportasiya olundum. Mənim Türkiyədən deportasiya olunmağımı xahiş etmək üçün AR daxili işlər nazirinin birinci müavini general-leytenant Seyfulla Əzimov və BMCMİ-nin rəisi general-mayor Əbülfət Rzayev Ankaraya gedərək Türkiyənin daxili işlər naziri Ali Yerlikaya ilə görüşüb. Həmçinin, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov

Сканировано с CamScanner

Türkiyə Prezident Administrasiyasında mənim deportasiya olunmağımla bağlı görüşlər keçirib. Ayrıca, UN GSP məzunu olduğuma görə, BMT-nin Cenevrə ofisinin baş direktoru, əvvəllər Rusiyada yüksək dövlət vəzifələrində işləmiş Tatyana Valovaya Azərbaycana dəvət olunub, Azərbaycan Prezidenti və xarici işlər naziri ilə keçirilən görüşlərdə mənə açılacaq siyasi motivli cinayət işi ilə bağlı Tatyana Valovayaya məlumat verilib və ondan bu məsələnin BMT-də ört-basdır edilməsi xahiş olunub. 5 avqust 2023-cü ildə isə AR daxili işlər nazirinin adından Türkiyənin Bakıdakı səfirliyi vasitəsilə Türkiyənin Daxili İşlər Nazirliyinə barəmdə AR Cinayət Məcəlləsinin 204.3.1-ci maddəsi (mütəşəkkil dəstə halında saxta pul hazırlama, əldə etmə və satma) ilə cinayət işi açıldığına və axtarışa verildiyimə dair sənəd göndərilib.

AR Konstitusiyasının 70.2-ci maddəsinə əsasən, siyasi əqidəsinə görə, habelə Azərbaycanda cinayət sayılmayan əmələ görə təqib edilən şəxslərin başqa dövlətə verilməsinə yol verilmir. Bənzər maddə Türkiyə Konstitusiyasında da var. Türkiyə rəsmiləri mənim saxta pulla heç vaxt əlaqəm olmadığını, Azərbaycana 2020-ci ilin yanvar ayından sonra səyahət etmədiyimi yaxşı bilirdilər. Onlar mənim İstanbul Universitetinin doktorantı olduğumu, UNESCO ilə layihələr icra etdiyimi, Onkologiya Portalını qurduğumu və Palmali şirkətində işlədiyimi də bilirdilər. Mən YTB təqaüdçüsünün, İstanbul Universiteti doktorantının siyasi sifarişlə Türkiyədən deportasiya olunacağına inanmırdım. Ona görə təqib olunduğumu, Türkiyə millət vəkillərinin mənimlə bağlı Bakıya dəvət olunduğunu, hətta iqtisadiyyat naziri Mikayıl Cabbarovun Türkiyə Prezident Administrasiyasında görüşlər keçirdiyini bilsəm də, Türkiyəni tərk etmədim. Mən azərbaycanlı onkoloji xəstələrin Türkiyədə minimum xərclə müalicə olunması və müalicədən sonra ailəsi ilə Türkiyənin turistik mərkəzlərində pulsuz istirahəti üçün Onkologiya portalını qurmuşdum. Həmçinin, Türkiyədə işləyən azərbaycanlı həkimlərlə və tibb tələbələri ilə birlikdə onkoloji xəstəliklərlə bağlı tibbi maarifləndirmə işini aparırdıq. Bu məqsədlə www.onkologiya.com saytını qurmuşdum. Bu layihə çərçivəsində Selcuk və Haluk Bayraktar qardaşlarının qurucusu olduğu Can Sağlığı vəqfi ilə danışıqlar aparırdım. Can Sağlığı vəqfi ilə birlikdə türk həkimləri ilə video reportajlar hazırlamaq, onları portala yerləşdirmək istəyirdim. Portalın instagram hesabını (onkologiyacom) istifadəyə vermişdim. Bu layihənin davamında, Türkiyədə yüzlərlə azərbaycanlı tibb tələbəsi oxutmağı planlaşdırırdım. AYEF layihəsi ilə bağlı bir neçə azərbaycanlı tibb tələbəsinə məlumat vermişdim, hansı ki, onların maddi dəstəyə ehtiyacı var. Mən onların təhsilinə öz imkanlarım çərçivəsində

Сканировано с CamScanner

dəstək olurdum. AYEF layihəsi ilə Türkiyədə təhsil alan azərbaycanlı tibb tələbələrini maddi qayğılardan azad etmək istəyirdim. Ancaq Azərbaycan rəsmilərinin AYEF-i FETÖ ilə əlaqələndirib Türkiyə rəsmilərini manipulyasiya etməsi mənimlə bağlı qanunsuz deportasiya qərarının verilməsinə səbəb olub. Manipulyasiya olunduqlarını başa düşəndə isə artıq gec idi. Bir daha bəyan edirəm ki, BMCMİ-də mənə yazdırılan ifadədəki bütün cümlələr müstəntiq Yusifov Yusif Aslan oğlunun uydurma fikirləridir. Qubad İbadoğlu ilə mənim heç vaxt nə saxta pul, nə FETÖ, nə də dini kitablar mövzusunda söhbətimiz olmayıb. Nə mənim, nə də Qubad İbadoğlunun FETÖ ilə heç bir əlaqəsi yoxdur. FETÖ ilə əlaqəsi olanlar fetöçü Sadettin Korkutu Petkim CEO-su təyin edənlər, Star Neft Emalı Zavodunun inşasına FETÖ-nün şirkətlərini cəlb edənlər, FETÖ-nün Texas imamı Kemal Öksüzə ABŞ-da Azərbaycanın Dostları Assosiasiyasını (AFAZ) təsis etdirənlər, SOCAR-ın Azərbaycan Beynəlxalq Bankındakı hesabından AFAZ-a 750 min dollar köçürənlər və bu barədə fetöçü Kemal Öksüzlə email vasitəsilə yazışmalar aparanlar (bu köçürmənin qəbzi və email yazışmaları 2015-ci ildə ABŞ Konqresinin Etika Komitəsinin hesabatında yayınlanmışdır), 2013-cü ildə AFAZ və digər FETÖ təşkilatlarının təşkilatçılığı ilə Bakıda "ABŞ-Azərbaycan: Gələcəyə baxış" (U.S.-Azerbaijan: Vision for future) konfransını keçirənlər, 2014-cü ildə fetöçü Kemal Öksüzün başçılıq etdiyi AFAZ-ın təşkilatçılığı ilə Vaşinqtonda SOCAR-ın sabiq prezidenti və azərbaycanlı millət vəkillərinin iştirakı ilə tədbirlər keçirənlər, 2015-ci ildə fetöçü Kemal Öksüzün və işçilərinin təşkilati dəstəyi ilə ADA Universitetində Bakı Enerji Yay Məktəbini keçirənlər, Türkiyədə fetöçü Baltacı qardaşları ilə SOCAR-ın ortaq şirkətlər qurmasına qərar verənlər, Pensilvaniyaya gedib FETÖ başçısından ABŞ-da Azərbaycana lobbiçilik etmək üçün dəstək istəyənlərdir. Türkiyənin siyasi hakimiyyəti bütün bu faktları yaxşı bilir. ~~[illegible]-cü ildə~~ Onlarda bu faktların doğruluğunu təsdiq edən sübutlar da var. 2013-cü ildə Türkiyədə ali hakimiyyət nümayəndələrinə qarşı baş verən FETÖ əməliyyatlarından sonra 15 iyul 2016-cı ilə qədər SOCAR-ın sabiq rəhbərliyi cənab Ərdoğanın ardıcıl xəbərdarlıqlarına baxmayaraq FETÖ ilə əlaqələrini daha da gücləndirmiş, strateji ittifaq səviyyəsinə yüksəltmişdir. 15 iyul 2016-cı ildə baş verən çevriliş cəhdi uğursuzluğa uğradıqdan sonra SOCAR Türkiyə şirkətlərindən minlərlə fetöçü işdən çıxarılmış, bəziləri həbs olunmuşdur. ANS televiziyasının keçmiş müxbiri Qənirə Atəşoğlunun FETÖ başçısından aldığı müsahibə bizə bir daha SOCAR-FETÖ əlaqələri barədə həqiqətləri göstərdi. ANS televiziyasının o müsahibədən dərhal sonra bağlanması təsadüfi deyil. ANS televiziyasını bağlamaqla SOCAR-FETÖ ittifaqının üzə çıxmasını önləməyə çalışanlar həm də Azərbaycan vətəndaşlarını azad televiziya kanalından məhrum etdilər.

Сканировано с CamScanner

Təəssüf ki, ANS-in tamaşaçıları bu ədalətsiz qərarın ləğv edilməsi üçün heç nə etmədi. Halbuki, ANS-in işçiləri gecə-gündüz xalqa dürüst, obyektiv, qərəzsiz informasiya çatdırmaq üçün əzmlə və fədakarlıqla çalışırdı. ANS televiziyasını və onun işçilərini müdafiə etmək xalqımızın mənəvi borcu idi. Xalq öz mənəvi borcunu vaxtında yerinə yetirməyəndə ictimai maraqları qurban verir və tədricən fundamental hüquq və azadlıqlarını itirir. Bugün Azərbaycan xalqının fundamental hüquq və azadlıqlar, demokratiya baxımından Cənubi Qafqazda ən geridə olmasının səbəbi Qarabağın işğaldan azad edilməsi xaricində, öz mənəvi borcunu vaxtında yerinə yetirməməsi, nəticədə ictimai maraqları qoruya bilməməsidir.

İqtisadçı alim Qubad İbadoğlu ilə 2021-2023-cü illərdə apardığımız tədqiqatlar, irəli sürdüyümüz AYEF layihəsi Azərbaycan xalqının maraqlarına cavab verir. Biz bu tədqiqatlarla SOCAR-ın korrupsiyaya bulaşmış rəhbərliyinin dəyişdirilməsinə, AYEF layihəsi ilə isə mindən çox Azərbaycan gəncinə xaricdə təhsil imkanı yaradan "2022-2026-cı illər xaricdə təhsil üzrə dövlət proqramı"nın qəbul edilməsinə nail olmuşuq. Biz həm də gəlirini xalqı ilə bölüşən xeyriyyəçi soydaşımız Mübariz Mənsimova edilən haqsızlıqları, qurulan məkrli oyunları obyektiv araşdırmalar nəticəsində aşkar edib ictimailəşdirərək onun azadlığı və pozulan hüquqlarının bərpası üçün çalışmışıq. Bu fəaliyyətimizdən qəzəblənən Azərbaycan rəsmiləri bizə saxta ittihamlarla siyasi motivli cinayət işi açaraq, məni siyasi sifarişlə, adam oğurlarcasına Türkiyədən deportasiya etdirərək, BMCMİ-də mənə dəhşətli işgəncələr verərək, çayıma psixotrop maddələr qataraq, məni ailəmlə, cinsi zorakılıqla təhdit edərək, sonra mənə yalan ifadə yazdırıb sübutları saxtalaşdıraraq Qubad İbadoğlunu siyasi fəaliyyətini dayandırmağa və Azərbaycan Demokratiya və Rifah Partiyasını bağlamağa məcbur etdilər. Mən psixotrop maddələrin təsirindən azad olduqdan sonra özümün və ailəmin həyatını təhlükəyə atıb haqq-ədalət, insanlıq, ictimai maraqlar naminə həqiqətləri ictimaiyyətlə bölüşdüm. Azərbaycan xalqı həqiqətləri öyrəndikdən sonra bizə edilən haqsızlıqların aradan qaldırılması üçün, haqq-ədalətin öz yerini tapması üçün tələbkar, qərarlı, qətiyyətli olmasa, ANS-i bağladıqları kimi, bizim də çırağımızı söndürəcəklər. Beləcə, xalq yenə öz maraqlarını qurban verəcək. Halbuki, bizim çırağımızı söndürənlər bizimlə kifayətlənməyəcək, xalqa yaxın olan nə qədər savadlı və insanpərvər azərbaycanlı ictimai fəal varsa, hamısını bir-bir aradan götürəcəklər, zərərsizləşdirəcəklər. Bu repressiya dalğasını ancaq xalqın iradəsi dayandıra bilər. Əziz Azərbaycan xalqı! Bütün bizə-haqsızlığa uğrayan övladlarına sahib çıx! Bizim məhv edilməmizə səssiz qalma! Xalqın səsi haqqın səsidir!

Сканировано с CamScanner

Mən xalqımın və onun ləyaqətli övladlarının hüquq və azadlıqlarını müdafiə etdiyimə, ictimai fayda yaradan layihələr irəli sürdüyümə, korrupsiya ilə mübarizə apardığıma görə şərlənib zindana salınmışam. Mənim heç vaxt saxta pulum olmayıb. Mənim FETÖ ilə də heç bir əlaqəm olmayıb. AFAZ-dan fərqli olaraq, AYEF azad təfəkkürlü, vicdanlı, məsuliyyətli, savadlı, ixtisaslı azərbaycanlı kadrlar və gənc liderlər yetişdirmək məqsədilə təsis edilib. AYEF-in təsisçiləri Azərbaycanın tanınmış ictimai xadimləri, ziyalılarıdır. Hamısı intellektual, savadlı, yüksək təhsilli insanlardır. Onlar FETÖ-nün təsiri altına düşəcək insanlar deyil. Bu fondun dini ekstremizmlə saxta pulla heç bir əlaqəsi yoxdur. Sadəcə olaraq, bu fondun korrupsiya yolu ilə əldə edilmiş və Böyük Britaniya iqtisadiyyatına qara yollarla yatırılmış əsəitlərin NCA tərəfindən Azərbaycan gənclərinin təhsilinə yönləndirilməsi təklifi / təşəbbüsü korrupsiyaya bulaşmış Azərbaycan rəsmilərini qorxuya salıb, bizi ləkələmək üçün FETÖ, saxta pul böhtanından istifadə olunub. Mübariz Mənsimovun London arbitraj məhkəməsində müdafiə oluna bilməməsi üçün də FETÖ böhtanından istifadə olunmuşdur. FETÖ ilə ittifaq yaradıb cənab Ərdoğana xəyanət edənlər indi FETÖ metodlarından istifadə edərək azad düşüncəli, ləyaqətli azərbaycanlıları şər-böhtana, işgəncələrə, repressiyalara məruz qoyurlar. Cənab Ərdoğan böyüklük göstərib qardaşlıq naminə onların xəyanətini bağışladı. Ancaq cənab Ərdoğan FETÖ-dən azərbaycanlı elm adamlarının, ictimai fəallarının [illegible] şərlənməsi, ləkələnməsi üçün istifadə olunmasına icazə verməməlidir.

Mən Türkiyənin ən savadlı, ən ləyaqətli müəllimlərindən dərs almışam. Onlar mənə elə güclü dəyərlər qazandırıb ki, FETÖ kimi min dənə təşkilat da çalışsa, məni ümumbəşəri dəyərlərdən, haqq-ədalətdən döndərə bilməz. Mən məqsədə çatmaq üçün hər yolu mübah görən insan deyiləm. Makiavelizm vicdansız insanların yoludur, həyat fəlsəfəsidir. Onlar üçün bu həyatda prinsiplər, dəyərlər, ali məqsədlər, vicdan, mənəviyyat, etika, haqq-ədalət, hüquq, müqəddəslik anlayışı yoxdur. Onlar üçün bu həyatda sadəcə maraqlar əsasdır və maraqları üçün hər şeyi etməyə hazırdır. Psixologiyada "qaranlıq üçlü" (dark triad) olaraq bilinən ən təhlükəli şəxsiyyət tiplərindən biri makiavelistlərdir. Digərləri isə narsistlər və psixopatlardır. Nə yazıq ki, siyasətlə məşğul olanların, yüksək vəzifələr tutmağa can atanların yarıdan çoxunda bu xəstəliklərin; makiavelizm, narsizm və psixopatiyanın əlamətləri var.

AYEF-in təhsilinə dəstək olacağı Azərbaycan gəncləri prinsipial, vicdanlı, ədalətli, təvazökar, humanist insanlar olacaq. Onların bu həyatda ən böyük məqsədi yaxşı insan olmaq olacaq. Yaxşı insanlar nə haqsızlıq edər, nə haqsızlığa alət olar, nə də haqsızlığa göz

Сканировано с CamScanner

yumaz. Yaxşı insanlar müharibə veteranlarına 80 manat müavinət verilməsinə razı olmaz. Yaxşı insanlar vətənində yüz minlərlə məcburi köçkün çadırda yaşayarkən, milyonlarla vətəndaş çörək bişirmə sexlərinin qabağında ailəsinə çörək aparmaq üçün növbə gözləyərkən, ictimai vəsaitlərlə xaricdə milyonlarla dollar dəyərində malikanələr satın almaz. Yaxşı insanlar vətənində ixtisası üzrə müəllim işləmək üçün xaricdə təhsil üzrə dövlət proqramına 3 dəfə müraciət edən elm adamına məkrli oyunlar qurub müsabiqədən kəsməz. Yaxşı insanlar vətənində haqsızlığa etiraz edən alimləri, jurnalistləri, ictimai fəalları saxta ittihamlarla cinayət məsuliyyətinə cəlb etməz. Yaxşı insanlar dustaqların çayına, yeməyinə psixotrop maddələr qatıb onları zəhərləməz, yaxşı insanlar təqsirləndirilən şəxsləri ailəsi ilə təhdit edib onlara yalan ifadə yazdırmaz. Yaxşı insanlar siyasi ambisiyaları üçün vicdanlı, xeyirxah, xoşməramlı soydaşlarına sui-qəsd planları hazırlamaz/qurmaz.

24 iyunda, qardaşımla görüşə gedərkən, təcridxanada Harvard Universiteti məzunu, ictimai fəal Bəxtiyar Hacıyevi gördüm, öz dərdim yadımdan çıxdı. Sonra kameraya qayıdıb Bəxtiyar Hacıyevin halına ağladım. Ona cinayət işini açan müstəntiq də Yusif Yusifovdur. Cənablar, Bəxtiyar Hacıyevi evdə gözləyən yaşlı anası var. Bəxtiyar Hacıyev indi anasına qulluq edəcək yaşdadır. O qocaman müəlliməni incitmək insafsızlıqdır. Dünyada Harvard Universiteti məzununu siyasi motivlərlə həbsdə saxlayan ikinci dövlət yoxdur. İnsanda tamahkarlıq artdıqca, ətrafına zərəri də artır. Bu qayda siyasətdə də keçərlidir. Bugün bəşəriyyət siyasətçilərin tamahkarlığından əziyyət çəkir. Ukraynadakı müharibə də, Qəzzədəki qırğın da, Afrikadakı səfalət də, Azərbaycandakı korrupsiya da siyasətçilərin tamahkarlığının təzahürləridir. BMCMİ-də 12 gün işgəncəyə məruz qalmağımın əsas səbəbi həm araşdırmalarımla, həm də layihələrimlə tamahkarlıqla mübarizə aparmağımdır.

Artıq 31 gündür ki, üzləşdiyim haqsızlıqlara etiraz olaraq aclıq edirəm. Şəhid general Polad Həşimovun anası Səmayə ana qardaşıma zəng edərək aclığı dayandırmağımı xahiş edib. Mən Səmayə ananın əllərindən öpərək, qarşısında baş əyərək bildirmək istəyirəm ki, məni qanunsuz olaraq Türkiyədən Azərbaycana gətirib saxta ittihamlarla 11 aydır ki, həbsdə saxlayanlar mütəmadi olaraq çayıma, yeməyimə psixotrop maddələr qataraq məni narkoman (ifadəyə görə üzr istəyirəm) etməyə çalışıblar. Mən həyatım boyu siqaret çəkməmişəm. Mədəmdəki narahatlığa görə, demək olar ki, spirtli içkilərdən də istifadə etmirəm. Bir aydır ki, aclıq edərək, məruz qaldığım şər-böhtana və işgəncələrə etiraz etməklə birlikdə, məkrli

insanların çirkli məqsədlərinə çatma ehtimalını sıfırlamışam. Yemək yeməyə başlasam, onlar bir yol tapıb yenidən məni psixotrop maddələrlə zəhərləyəcək. Sonra mən iradəsiz, anlaqsız hala düşüb iqtisadçı alim Qubad İbadoğluna qarşı şər-böhtana alət edilə bilərəm. Bir daha elə rəzil duruma düşməkdənsə, aclıqdan ölmək daha yaxşıdır.

Əziz Səmayə ana! Məni bağışlayın! Bu siyasi motivli cinayət işinə xitam verilmədən, haqq-ədalət yerini tapmadan aclığı dayandıra bilmərəm. Sizin oğlunuz da haqq-ədalət uğrunda şəhid olub. Niyyət etmişəm ki, əgər azadlığa sağ çıxsam, ilk olaraq şəhid general Polad Həşimovun, mərhum millət vəkili Qənirə Paşayevanın və mərhum Hacı Şahinin məzarlarını ziyarət edəcəm. Sonra gəlib Sizin əlinizi öpəcəm. Mənim də Sizdən bir xahişim var: Lütfən Türkiyə Prezidentinə şəhid anaları adından müraciət edərək mənə köməklik etməsini xahiş edin. Mən Türkiyə dövlətinə və onun Prezidentinə güvənərək 2020-ci il mayın 4-də uğradığım sui-qəsd cəhdindən sonra üçüncü ölkəyə mühacirət etmədim. İnanıram ki, Türkiyə Prezidenti Sizin müraciətinizdən sonra mənə kömək əlini uzadıb həyatımı xilas edəcək.

İmza: [signature] (Qasımov Fazil)

Tarix: 15.07.2024.

Сканировано с CamScanner